**Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2022-ci ilin oktyabrın 31-nə planlaşdırılmış növbəti görüşü barədə diskussiyaların getdiyi, üfüqdə sülh perspektivinin göründüyü hazırkı şəraitdə Ermənistan siyasilərinin səsləndirdikləri bəyanatlar bu təşəbbüsün faydalı nəticələr verəcəyinə dair şübhələr doğurmaqdadır. Ölkə parlamentinin spikeri Alen Simonyanın rəsmi İrəvan üçün hansısa "qırmızı xətt"in mövcudluğunu bildirməsi, belə qənaət formalaşdırır ki, baş nazir Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinin Soçi dəvətini qəbul etməsi formal xarakter daşımaqdadır. "Qırmızı xətt"ə gəldikdə isə, A.Simonyan fikrini erməni xalqının və Qarabağ ermənilərinin taleyi ilə bağlı güzəşt yerinin olmaması ilə əsaslandırır.**

# Ermənistanın Laçın dəhlizi təxribatı

## *Soçi görüşünün boykotuna hesablanmış "siyasi ssenari"*

Göründüyü kimi, Ermənistanın siyasi rəhbərliyi sülh danışıqları müstəvisindəki ədalətli paradiqmalara indidən güzəşt donu geyindirməklə, sanki özündə ona qarşı müqavimət potensialı bəsləyir. Amma müqavimətin başqa əmması da var. Söhbət Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazisindəki qeyri-qanuni erməni hərbi birləşmələrinə silah-sursat daşınmasından gedir.

Ondan başlayaq ki, 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatının şərtlərinə görə, üç il ərzində Laçın dəhlizinə alternativ yol çəkilməli və bundan sonra ermənilərin ənənəvi dəhliz vasitəsilə hərəkəti dayandırılmalı idi. Üstündən iki il keçib və Azərbaycan həmin alternativ yolun çəkilişini başa çatdırıb. Nəticədə, Laçın şəhəri də daxil olmaqla, rayonun Zabux və Sus kəndləri tamamilə ölkəmizin nəzarətinə keçib.

Bu da bir reallıqdır ki, Ermənistan yeni yolun öz ərazisindən keçən hissəsinin çəkilişini yubatmağa çalışsa da, mövcud istiqamətdəki işlərə start vermək məcburiyyətində qalıb. Hazırda Laçın dəhlizindən ermənilər də istifadə edə bilir ki, bu, Azərbaycanın humanist yanaşmasından qaynaqlanır. Ermənistan isə durumdan sui-istifadə yolu tutur və həmin ərazidən təxribatlar törətməklə yararlanmağa cəhd edir. Halbuki, üçtərəfli Bəyanatın 6-cı bəndində yazılır ki, Laçın dəhlizi yalnız vətəndaşların, malların və nəqliyyat vasitələrinin keçidi üçün nəzərdə tutulur.

**(ardı 6-cı səhifədə)**

# Ermənistanın Laçın dəhlizi təxribatı



**(əvvəli 1-ci səhifədə)**

Soçi görüşü öncəsi Ermənistan tərəfindən bu sayaq hallara yol vermək cəhdləri məsələnin yeni hərbi təxribat perspektivi barədə düşünmək üçün çox ciddi əsaslar formalaşdırır. Elementar sual yaranır: Silah nə üçün daşınır? Axı, Azərbaycan ərazilərində qanunsuz hərbi fəaliyyət göstərmək elə həmin Bəyanatın 4-cü bəndinə ziddir. Əlbəttə, daha bir sual da var ki, Ermənistan öz hərbi birləşmələrini Azərbaycan ərazisindən niyə tam şəkildə çıxartmır?

Bütün bunlar sülh danışıqlarının Soçi perspektivini şübhə altına alır. Üstəlik, Laçın dəhlizindən silah daşımaq əməlləri Azərbaycanı adekvat addımlar atmağa vadar edir. Məlumdur ki, ölkəmiz göz görə-görə öz ərazisindəki qeyri-qanuni erməni hərbi birləşmələrinin güclənməsinə yol verməyəcək. Çünki silahlar sonradan Azərbaycan əsgərini nişan alır, həyatına təhlükə yaradır. Buna görə ölkəmizin Qarabağdan Ermənistana gedən yolu tam şəkildə qapatması məntiqidir. O yolu ki, ermənilər ona dəhliz deyir. Belədə ortaya daha bir sual çıxır: Azərbaycanın məcburiyyət qarşısında, yəni, hərbi məqsədli daşınmaların qarşısını almaq üçün nəfəsliyi kəsməsi hansı reaksiyalar doğuracaq?

İlk baxışdan düşünülə bilər ki, Ermənistanın silah daşımaq yolu ilə qəsdən Azərbaycanı dəhlizi bağlamağa məcbur etməsi İrəvanın ölkəmizi beynəlxalq ictimaiyyətin gözündən salmaq yolundakı növbəti cəhdidir. Təxminən belə: Qarabağda dinc ermənilər var, Azərbaycan onların yaşam hüququna hörmətsizlik edir, gələcəkdə də hörmətsizliyi davam etdirəcək və nəhayət, ermənilərin Azərbaycanın yurisdiksiyasında yaşamaları mümkünsüzdür. Təbii, məsələnin sırf belə qoyuluşu da mümkündür. Bəs, yalnız bumu?..

Əlbəttə, Azərbaycana qarşı ən müxtəlif istiqamətlərdə təzyiqin olması Ermənistanın siyasi rəhbərliyi üçün sərfəlidir. Amma digər məqsəd də var. Sırf Soçi görüşünə hesablanmış məqsəd. Söhbət Rusiya Prezidentinin təşəbbüsünü heçə endirmək niyyətindən gedir. Bunun ölkə parlamentinin spikeri A.Simonyanın timsalında ilkin siyasi nişanəsini diqqətə çatdırdıq. Simonyan onu da bildirir ki, iki ölkə arasındakı durumun nizamlanması yolunda hər hansı konkretlik yoxdur. Yəni, real təklif yoxdur. O, indiyədək keçilmiş yolu heçə endirir. O yolu ki, onda başlıca missiyanı yerinə yetirən Rusiyadır. Onu da görürük ki, İrəvanın hamisi sayılan Qərbdən Putinin Soçi dəvətinə qarşı qısqanclıq var. Bu baxımdan Fransa Prezidenti Emmanuel Makronun Moskvanı müttəfiqi Ermənistana qarşı az qala xəyanətdə günahlandırmasından tutmuş, ABŞ Dövlət Departamentinin sözçüsü Ned Praysın Rusiyanın görüş təklifinin səmərəsizliyinə eyham vuran bəyanatınadək bir sıra məqamları vurğulamaq mümkündür.

Sonda belə nəticəyə gəlmək olar ki, Ermənistan Laçın dəhlizi ilə bağlı Azərbaycanın cavab tədbiri müstəvisində hərbi konfrantasiyaya söykənmiş yeni reallıq formalaşdırmaqla və məsələyə beynəlxalq ictimaiyyətin diqqətini yönəltməklə Rusiya Prezidenti Vladimir Putinin görüş təklifini boykot etmək niyyətindədir. Paşinyanın bu istiqamətdəki mümkün gərginliyi "əsas" göstərib Soçi yolçuluğundan boyun qaçırması da mümkün görünür. Ermənistan baş nazirinin Putinin dəvətinə müsbət yanaşdığını, Soçiyə gedəcəyini açıqlaması söz anlamında heç bir ciddi əhəmiyyət daşımır. Çünki fikir dəyişdirmək prinsipsizliyi həm Paşinyanın siyasi xarakterindən irəli gələn xüsusiyyətdir, həm də ümumən Ermənistanın siyasi varlığının təzahürüdür.

**R.AMİN**

Xalq qəzeti.- 2022.- 28 oktyabr.- S.1;6.